# “SƏRDAR ƏSƏD YADDAŞIMDA NARAZI ŞAİR KİMİ YAŞAYIR”

## (Xatirə)



*Yusif DIRILI*

Atam - Mahmudov Məhəmməd İsmayıl oğlu ömrünü telefon dirəkləri və relslər arasında keçirən dəmiryol rabitəçisidir. Buna baxmayaraq, onu həmişə mütaliə edən, sözə qiymət verən görmüşəm. Atam belə şeylərə vaxt tapmağı bacarırdı. Təhsilimizə xüsusi diqqət yetirməyə imkanı olmasa da, əlaçı oxumağımızla qəlbən öyünürdü. O, bizə gənclik dövrü ilə bağlı maraqlı xatirələr danışmağı, bizsə dinləməyi xoşlayırdıq. Ən çox yadımda qalanı müəllimi, xalq yazıçısı Sabir Əhmədova sonsuz hüsnrəğbəti və mərhum şai-rimiz Sərdar Əsədlə bağlı danışdığı əhvalatdır. Sonuncunu dəfələrlə qələmə almağı, mətbuatda çap etdirməklə “mürgülü xatirələri oyatmaq” istəsəm də, mənim səhlənkarlığımdan bu arzu gecikirdi. Lakin “İki sahil” qəzetində yazıçı-polkovnik Tahir Kazımovun “Balaca suçunun xatirələri” adlı xatirə yazısını oxuduqdan sonra həmin istək təzədən baş qaldırdı.

Atam danışır ki, Sərdar Əsəd 60-cı illərin ortalarında tanınan şairlərdən idi. Ancaq onu üzdən tanımırdım. Şeirlərini isə oxumuşdum və müəyyən qədər bələdçiliyim vardı. Qəfil tanışlıq onu mənə təkcə şair kimi yox, həm də insan kimi sevdirdi. Nədənsə narazılıq içində vurnuxan bu səmimi, sadə şairi ilk və sonuncu görüşümüzdən sonra unuda bilmirəm.

...1963, ya da 1964-cü ilin payız ayının əvvəlləriydi. Azərbaycan Dəmiryol Texnikumunda qiyabi təhsil alırdım. Bakıya kurs işini təhvil verməyə gəlmişdim. Kəm-kəsirim olduğuna görə, bir gün ləngiməli oldum. Ancaq gecələməyə yerim yox idi. Meh-manxanada isə o zaman yer tapmaq çətiniydi. Əgər olsaydı belə, ona pul hardaydı? Məcburiyyət qarşısında qalıb Sabunçu vağzalına (indiki Bakı dəmiryol - Y.D.) gəldim. Saat təxminən 20-21 radələriydi. Artıq axşam düşmüşdü. Gözləmə zalında gəzinirdim. Kimsə arxadan səsləndi:

- Ə, əmoğlu, şalvarının dizdiyi çıxıb.

Elə bildiim doğrudan da nəsə olub. Dönüb baxdım. “Naməlum adam” şalvarın balağının arxa hissədən ayağına tikilmiş çılıqqaya (sep - Y.D.) işarə edirdi. O zaman bu, cavanlar arasında dəbiydi. “Əşi, dedim. Bunu tikmişəm ki, şalvarın ayağı sürtülüb didilməsin...” Sözüm ağzımda qaldı. Elə bil bunu gözləyirmiş kimi “Ə, mamoğlu, vallah hərəkətlərindən, danışığından bizim tərəflərin adamlarına oxşayırsan”. Mən də qayıtdım ki, “azərbaycanlılar hamısı bir-birinə oxşayır, bir vətəndənik də”. Dedi: “yox dayna, mən Cəbrayıldanam, özüm də filankəsəm”. Əvvəldən də bilirdim Sərdar Əsəd adlı şair olduğunu. Soltanlıda Heydər kişinin oğluydu. Zəndimi bir də soruşmaqla dəqiqləşdirdim. Çünki başqa bir Sədrdar da varıydı. O vaxt “Kommunist” qəzetində işləyirdi. Sifətdən çox oxşayırdılar. Özü də bizə qohumluğu çatırdı. Ancaq onun atasının adı Şahmar idi. Bu isə başqa Sərdarıydı. Şair Sərdar Əsəd. Hardasa oxuduğum bir şeiri də gəlib yadıma düşdü:

Uşaqlar, ay uşaqlar,
Deyib gülən uşaqlar.
Yaman dolub ürəyim, -
Sizə bir nağıl deyim...

Maraq məni götürdü. Təzədən əl verib görüşdük. Skamyaların birində əyləşib xeyli söhbət elədik. Biləndə ki, gecələməyə gəlmişəm, təkidlə məni evinə dəvət etdi. Yaxınlıqda yerləşən Basin (indiki Füzuli - Y.D.) küçəsindəki mağazalardan birinə girib kolbasa-çörək aldıq. Səhv eləmirəmsə Semaşko xəstəxanasının yanlarındaydı evi. Onda mənim şəhərə bələdçiliyim pis olduğuna görə yaxşı yadımda qalmayıb. Ancaq birotaqlı, nimdaş görkəmli evin son dərəcə kasıb, narahat bir adama məxsus olduğu bilinirdi. Otaqda birnəfərlik çarpayı, onun üstündə döşəkdən başqa yorğanmı, yoxsa odeyalmı vardı. Elə buradaca oturub “Allah verəndən” yeyib söhbətə keçdik. Ordan-burdan xeyli danışdıq, gecə saat 12-yə işləyirdi. Sərdar dedi ki, yer darısqaldı, sən narahat olma, mən gedirəm başqa



yerdə qalmağa. Düzü, bilmədim, o, xalasıoğlunu, ya əmisioğlunmu nəzərdə tuturdu. Dedi, qapını daldan kilidləyib gedirəm. Tez də əlavə elədi ki, xalaoğlu, sən Allah, qorxarsan ha birdən, fikrinə ayrı bir şey gəlməsin (özü də bunu bir neçə dəfə qayıdıb dedi). Dedim, “ə, fikrimə niyə ayrı şey gəlir. Səni atana oxşadıram və özü də bilirəm ki, filankəssən. Heç yana getmə, elə burda qal, söhbət eləyək. İkimiz də çarpayıda yatarıq”. Ancaq o getdi. Belə çıxırdı ki, mən tək qalacaqdım. Bir xeyli ləngiyəndən sonra S.Əsəd geri döndü. Qapını təzədən açdı. Niyə qayıtdı, bilmədim. Görünür, ya heç kimi evdə tapmamış, ya da sadəcə narahat eləmək istəməmişdi tanış-bilişi. Keçdi içəri, təzədən oturub söhbətləşdik. Yatmağın məqamında mənə çarpayıda döşək saldı, özünə isə quru yerdə. Bu mənə pis təsir elədi: “Yer yox idi, mən də bilmədim gəldim. Gecə vaxtı sən də narahat olursan” - dedim. Dedi “bəs mən ellimi çöldə qoyuydum? Elə burda söhbət eləsək böyük şeydi”. Həmin gecə nə vaxt oyandımsa, onu şeir deyən gördüm. Sanki nədənsə narazıydı. Doğrusu, hələ o vaxtacan şairlə üz-üzə, diz-dizə oturmamışdım. Sərdar Əsəd coşqun, təbli şair kimi yadımda qalmışdı. Açıq-aydın hiss olunurdu ki, özünə qarşı kimlərdənsə qayğısızlıq, laqeydlik görüb. Və həm də biganəlik ondan əl çəkmir, onu daim təqib edir. Bu mühitdən idimi, şəraitdənmi, şəxsi həyatıydımı, iş yeriydimi, yoxsa



məktəbdənmi gəlirdi onu daxilən əzən qüvvə, üzündəki iztirab qarışıq narahat hərəkətlərində, narazı danışıqlarında, gileyli şeirlərində görünürdü laqeydliyin ifadəsi.

Nədənsə, tez-tez xalası qızını istəməyindən söz açırdı. Yəqin evlənə bilməmişdilər. Qızmı gəlməmişdi, yoxsa layiq bilməmişdilər (Ailədən, hökumətdən qayğı görən tələbə döşüdolu olar, yaxşı oxuyar. Ancaq mən onu narazı gördüm. Şəraitsizliyi bəlkə ona ailə qurmaqda mane olmuşdu, deyə bilmərəm. O, üzümün ifadəsindən nəyi soruşacağımı duyub, heç nəyi gizlətmirdi.. Eloğlu kimi ürəyini açmağı, dərdini yüngülləşdirməyi istəyirdi? Bu barədə hətta sonralar atasından da soruşmaq istədim. Hansı səbəbdənsə imkan olmadı... Nə qədər yorğun olsam da, qısa vaxtda məni özünə simsar bilən bu sadə, səmimi, zəngin, təbli şairin narazılıq ifadə edən baxışları, davranışı yuxumu göyə çəkmişdi. Bununla belə, zaman başqaydı. Həm də elə o vaxtlar şair bu cür qəbul olunurdu: daim narahat, coşqun. Sərdar Əsəd kimi söz yiyəsinin narahatçılığı isə dövrün insanlara qarşı hədsiz ögeyliyindən irəli gəlirdi. Ya rejimi mənimsəmək, ya da rədd etmək! Sərdar azad yaradıcı vətəndaş kimi ikincini seçdiyi üçün öz qəbrini qabaqcadan qazmışdı... Bunu lap çox sonralar düşünəcəkdim. Sular durulandan sonra...

...Səhər tezdən Sərdar mənimlə avtobus dayanacağına gəldi. Eloğlu kimi qucaqlaşıb görüşüb yola saldı. Qatar səhər saat 8-də yola düşəcəkdi. Yaddaşımda isə sarıyanız, ortaboylu, arıq, qıvrımsaç, 32-35 yaşlı Sərdar Əsəd adında insani, gözəl keyfiyyətlərə malik bir şair qaldı.

**2019**

